method, there are considered the main five ways of translating realties and carried out a comparative analysis.

***Rəyçi: f.e.d., prof. Rafik Manaf oğlu Novruzov***
***BSU Tərcüməmin nəzəriyyəsi və praktikası kafedrasının 17 dekabr 2021-ci il tarixli iclasın 04saylı protokolu***
***Daxil olma tarixi 24 dekabr 2021-ci il***

**UOT:82-09.**

# MƏHSƏTİNİN GƏNCƏ ŞƏHRAŞUBLARI

***Verdiyeva Təranə Fizuli qızı***
***AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzi***
***tarana.verdiyeva.83@mail.ru***

**Xülasə:** *Məhsəti Gəncəvi, XII əsr Azərbaycan ədəbiyyatının ən maraqlı və mübahisəli nümayəndələrindən biridir. Məhsəti lirikasının yalnız Azərbaycanda deyil, xaricdə də pərəstişkarları vardır.*

*Xalq şeirinə yaxın olan Məhsətinin fəlsəfi rübailəri Azərbaycan və Şərq ədəbiyyatı tarixində mühüm rol oynamışdır.*

*Məqalədə Məhsəti yaradıcılığındakı şəhraşublarla əlaqəli fikirlər əks olunur. Fars dilində yazılmış şəhraşubların etimologiyası araşdırılır, çox orijinal bir janr kimi tədqiq olunur.*

*Məqalədə eyni zamanda Məhsəti yaradıcılığından verilən rübailərin orijinalları da yer alır.*

**Açar sözlər:** Gəncə, Məhsəti Gəncəvi, rübai, şəhraşub, Əmir Əhməd, sənətkarlıq
**Ключевые слова:** Гянджа, Мехсети Гянджеви, четверостишие, шахрашуб, Амир Ахмед, ремёсла
**Key words:** Ganja, Mahsati Ganjavi, rubai, shahrashub, Amir Ahmed, craftsmanship

Bəşər tarixinin inkişafında ən mühüm məqamlardan biri kimi qiymətləndirilən intibah dövrü Azərbaycan ədəbiyyatına təsirsiz ötüşməmişdir. XII əsr İntibah dövrü Azərbaycanda Nizami Gəncəvi, Əbülüla Gəncəvi, Qivami Mütərrizi Gəncəvi, Əfzələddin Xaqani, Fələki Şirvani və b. kimi görkəmli şəxsiyyətlərin meydana gəlməsinə səbəb olmuşdur. Adı çəkilən sənətkarlardan əksəriyyəti hələ o zaman şəhər mədəniyyətinin inkişaf etdiyi Gəncədə yetişmişlər.

X əsrin 70-ci illərindən etibarən Şəddadilər sülaləsinin paytaxtı olan Gəncə Arranın ən iri şəhərinə çevrilmişdir. İnkişaf və çiçəklənmə əzmi ilə coşan şəhərdə ədəbiyyat sahəsindəki heç bir yerdə olmayan ayrıcalıqlar diqqəti cəlb edirdi. İntibah dövrünə məxsus humanizm, xüsusilə qadın şairənin yaradıcılığında tez-tez rast gəlinən bir hal deyildi. "Saray şeirinin formal xüsusiyyətlərindən kənara çıxa bilməyən, hökmdar və ilahiyyatın tərifini sənətin əsas məğzi hesab edən saray ədəbiyyatında qadına qarşı çox pis münasibət vardı. Din və şəriət qanunları da qadın hüququnu tapdalayırdı (1; 77). Belə bir zamanda öz yaradıcılığı ilə mürtəce fikirli insanlara qarşı mübarizə aparan humanistlər dəstəsi mövcud idi. XII əsr Gəncə mühitində yetişən görkəmli şairəmiz Məhsəti Gəncəvinin də daxil olduğu bu dəstə nəinki qadını, əməkçi insanları cəmiyyətin şərəfli üzvü sayır, hətta bu qəhrəmanları əsərlərində hökmdarlara qarşı qoyur.

Məhsəti Gəncəvi yaradıcılğının əsasını təşkil edən rübailərində sadə və əməksevər xalqı, sənət-peşə adamlarını tərənnüm edərək onlara qarşı duyduğu hörmət və məhəbbətini izhar etmişdir. Onun şeirlərində dərzi, papaqçı, çəkməçi, qumələyən, qəssab, dülgər və başqa

sənətkarlarla üzləşirik. Bu rübailərdə əmək adamına qayğı ilə yanaşılır və əməkçi insanın, sənətkarların, onların şagirdlərinin peşəsinə, sənətinə vurğunluq bildirilir.

در گنجه دو درزنگرِ استاد جوان
رفتند بداوری بر شاه جهان
فرمود ملک بدرزیان ارّان
گه درزنِ این برید وگه درزنِ آن

(11; 304 )

Gəncədə iki gənc iynəqayıran,
Şaha şikayətə oldular rəvan.
Dedi dərzilərə Arranın şahı:
“İynəni gah ondan alın, gah bundan (4; 90).

Məhsəti Gəncəvinin iynəqayıran gənclər haqqında yazdığı bu rübaisindəki həmin dövr Arran hökmdarının sənətkara qarşı olan münasibəti diqqəti cəlb edir. Şah hər iki gəncin işini qiymətləndirərək heç birinin kənarda qalmaması üçün dərzilərə iynəni gah ondan, gah da bundan almalarını tapşırır.

Məhsəti çevrəsindəki bu adamların mənəvi gözəlliyini tərənnüm edir, peşələrinin ustası olduqlarını bildirir. Əməkçi insanı alçaldan, rəiyyət, sənətkar, əkinçi sözünü təhqiramiz mənada işlədən saray ədəbiyyatının əksər nümayəndələrindən fərqli olaraq, Məhsəti bu insanları bədii sözün köməyilə öz humanist duyğularının qanadına alaraq ucaltmağa müvəffəq olmuşdur.

Məhsəti ünlü şairə olduğundan onun yaradıcılığı haqqında sonrakı yüzilliklərə aid ayrı-ayrı təzkirələrdə məlumatlar verilmiş, istedadından söz açılmışdır. Bu haqda tarixi ədəbiyyatların birində belə qeyd olunur: “XIX əsr təzkirəçilərindən Həmdullah Mustövfi Qəzvini “Tarixi-qozidə” əsərində onun haqqında məlumat vermişdir. Əmin Əhməd Razinin “Həft iqlim”, Dövlətşah Səmərqəndinin “Təzkirətuş-şüəda” əsərlərində şairə haqqında məlumatlar genişləndirilmişdir (1; 385).

Məhsətinin sənətkarlara, şəhər zəhmətkeşlərinə həsr etdiyi rübailəri “şəhraşublar” adı altında toplanmışdır. Ədəbiyyatşünaslığımızda bu adı çəkilən şeir növü, onun özünəməxsusluğu barədə bilgi olmadığından bəzən yalnış mülahizələrin də yaranmasına şərait yaratmışdır. Bu barədə akademik R.Hüseynovun mülahizəsi maraqlıdır. O yazır: “Azərbaycan poeziyasında şeirşünasların belə bir şeir növünün varlığından xəbərsiz qalması, amma şeir tipinin özünün gah o, gah bu klassikin ədəbi mirası arasında gözə sataşması bir sıra müəmmalar, anlaşılmazlıqlar doğurmuşdur. Bundan ən çox zərər çəkənsə Məhsəti Gəncəvi olub (http: // old.525 az/ view. php? lang).

Qeyd etmək lazımdır ki, Yaxın Şərqin klassik poeziyasında, o cümlədən Azərbaycan ədəbiyyatında çox maraqlı nümunələri qələmə alınmış “şəhraşublar Məhsətidən əvvəl də məlum idi” (5; 111).

Gözəllik aşiqi olan şairənin öz əsərlərinin qəhrəmanı kimi sənət-peşə sahiblərini seçməsi onun sənətə, sənətkara böyük hörmətindən, rəğbətindən irəli gəlirdi. Məhsəti Gəncə sənətkarlarının peşələrində ustalıqlarını onların işlərinin gözəlliyini vəsf etməklə təqdim edir.

دلدارِ کُلَه دوزِ من از رویِ هوس
می دوخت کلاهی زنسیخ و اطلس
بر هر تَرْکی هزار زه می گفتم
با آنکه چهار ترکرا یک زه بس.

(11; 258)

Həvəslə, şövqlə papaqçı canan,
Papaqlar tikirdi atlas parçadan.
Min əhsən söylədim hər naxışına,
Dördünə biri də bəsiydi haman (6; 214).

Şairə digər bir rübaisində başmaqçının işinə, peşəsinə olan heyranlığını göstərir və onun sənətinə yüksək qiymət verərək yazır:

زیبا بتِ کفشگر چو کفش آراید
هر لحظه لب لعل بر آن می ساید
کفشی که زلعل و شکرش آراید
تاج سرِ خورشیدِ فلک را شاید.
(11; 244)

Naxışlar vurduqca başmaqçı oğlan,
Ləlini başmağa sürtür anbaan.
O şəkər ləl ilə bəzənən başmaq
Günə tac olmağa layiqdir inan (6; 214).

Məhsəti Gəncəvi sənətkarın başmağa zinət verməsi və səliqə ilə işləməsinin insana xüsusi zövq verdiyini diqqətə çatdırır. Şairə qəssabın da öz işinin ustası olduğunu söyləyir və adamların onun sağ-solunda dayanaraq işinə tamaşa edib əhsən dediklərini belə təsvir edir:

آن دلبر قصاب دکان می آرست
استاده بدند مرد ز مان از چپ ور است
دستی بکفل بر زد و خوش خوش می گفت
احسنت زهی دنبه فر به که مراست
(11; 144)

Durmuşdu dükanda yenə qəssab oğlan,
Səf çəkib adamlar yenə sağdan, soldan.
Gəldikcə əli yanlarına söylərdi:
Əhsən sənə! Olmaz belə buddan, qoldan (6; 150).

Rübailərin birində nalbəndin peşəsinə heyranlığını bildirən şairə onun atı qeyri-adi ustalıqla nalladığını bir möcüzə adlandırır. Məhsəti Gəncəvi nalbəndin əməyini qiymətləndirməklə yanaşı zəhmətkeş insanın gözəlliyinə də işarə edərək onu 14 gecəlik aya bənzədir. O yazır:

آن کودک نعل بند داس اندر دست
چون نعل بر اسب بست از پای نشست
زین نادره تر که دید در عالم پست
بدری بسُمِ اسب هلالی بر بست.
(11; 158)

Yenə nalbənd oğlan əldə tutub nal,
Atı nallamağa əyildi dərhal.
Bu alçaq dünyada kim görüb bunu
Atın ayağına vursun ay hilal (6; 213)!?

Daha bir şəhraşubunda isə işinə heyranlığından daima üzü gülən dülgəri qəhrəman seçən şairə insan əməyinin tərənnümündən onun zahiri gözəlliyinə incə bir keçid verir. Burada sanki insanı Yaradanın da bir sənətkar olduğuna işarə edilir.

نجار که پسته او خنده بود
عکس رخ او چو مهر تابنده بود
باز از سر تیشه چو کند, کنده گری
حقا که اگر نظیر او کنده بود
( 12; 3)

Dülgərin dodağı hey gülüb oynar,
Yanağı gül kimi parlayıb yanar.
O, yonar kərkiylə durmadan, ancaq
Onuntək yonulmuş bir can harda var (6; 214).

Məhsəti Gəncəvi şəhraşublarında əks etdirdiyi Gəncə sənətkarlarının peşəkarlıqları ilə yanaşı cəhalətdən də uzaq olduqlarını söyləyir. Şairə sanki "bir sənətkarın cahilliklə işi olmaz" söyləyir.

سهمی که مرا دلبرِ خباز دهد
نه از سرِ کینه کز سر ناز دهد
در چنگِ غمش بمانده ام همچو خمیر
ترسم که بدستِ آتشم باز دهد.
(11; 243)

Mənə töhfəsini çörəkçi dilbər
Cəhalətlə deyil, naz ilə verər.
Qəmiylə xəmirə döndərdi məni,
Qorxuram ki, oda verə bu səhər (2; 47).

Məhsəti yaradıcılığını araşdırıb öyrəndikcə əslində şairənin özünün də peşəsi üzrə sənətkar olduğunu görürük. Məhsəti Gəncəvinin şəhraşublarında Gəncə şəhərindəki əsnafların, sənətkarların öz peşələrinə məhəbbəti, onların hər birinin öz işinə diqqəti, yaddaqalan, gözoxşayan iş görmələri, peşələrinin ustalığı təbii ki, şəhərin tərəqqisi, onun ticarət əlaqələrinin inkişafı, yüksəlişi ilə bağlıdır. Yəni şəhərin tərəqqisi ilə sənətkarlığı da çiçəklənir, yüksəlir.

Məhsəti Gəncəvinin yaradıcılığında rübailər xüsusi yer tutur, daha doğrusu, bu şairə rübai ustası kimi Yaxın və Orta Şərqdə yaxşı tanınmışdır. Şairənin irsinin toplanıb saxlanmasında ədib Sabir Termezinin şagirdlərindən olmuş Gövhərinin "Məhsəti və Əmir Əhməd" əsərinin də çox böyük əhəmiyyəti vardır (1; 377).

"Əmir Əhməd və Məhsəti" dastanı həm Məhsəti Gəncəvinin həyat və yaradıcılığını öyrənmək, tədqiq etmək, həm də Gəncə ədəbi mühitinə bələd olmaq yönümdən olduqca dəyərli mənbə sayıla bilər.

Dastanda göstərilir ki, Məhsəti atasının vəfatından sonra Gəncəyə köçür və şəhərin Xərabət məhəlləsində yaşamağa başlayır. Dastan müəllifi qeyd edir ki, Məhsəti öz savadı, gözəlliyi, eyni zamanda məlahətli səsi, poetik istedadı ilə müsəlman dünyasının bir çox ölkələrində hörmət qazanır. Buna görə də uzaqdan-yaxından Gəncənin Xərabət məhəlləsinə Məhsətinin məlahətli səsini dinləmək üçün əyanlar, tacirlər axışırlar. Məhsəti Gəncəvi oxumaqla yanaşı həm də çəng və ud kimi alətlərdə ifa edə də bilirdi. Bu haqda dastanda da qeyd edilir ki, "Atası musiqi müəllimlərinin gələrək onun qızına musiqi biliklərini öyrətmələrini əmretdi. O, (Məhsəti Xanım) 12 məqam, 24 şöbə öyrəndi və musiqi elmində ustad oldu. (3; 17). Şairə öz rübailərində də musiqi bacarığının olduğunu qeyd edir.

Məhsəti Gəncəvinin gözəl səsini dinləməyə, onu görməyə Əmir Əhməd də Xərabat məhəlləsinə gəlir. Bu əhvalat dastanda belə verilir: Bir dəfə Əmir Əhməd yuxusunda görür ki, cənnətə düşüb və bir huri şərab dolu piyalə ilə onu qarşılayır. Əmir Əhməd şərabı nuş edir və həmin andan o hurinin gözəlliyi ilə məst olur. Səhər atası görür ki, Əmir Əhməd pərişandır. Onun qüssəsini dağıtmaq üçün 400 atlı götürüb Gəncəni gəzməsinə icazə verir. Əmir Əhməd məhəllələrin birindən keçəndə musiqi sədaları eşidir və öyrənir ki, bura Xərabatdır. Ordakı meyxanələrin birində dörd mütəkkənin üstündə uzanmış bir qız görür. Əmir onun yuxuda gördüyü huri olduğunu kəsdirir. Məhsəti ilə Əmir Əhməd arasındakı məhəbbət burada başlayır. Sonra Məhsətinin də Əmir Əhmədə sevgisini ifadə etdiyi rübailəri dastana xüsusi gözəllik gətirir.

من مهستی ام همه خوبان شده طاق
مشهور بحسن در خراسان و عراق
ای پور خطیب گنجه از بهر خدا
مگذار چنین بسوزم از درد فراق
(11; 270)

Mən Məhsətiyəm, hüsnümə yox tay, ortaq,

Olmuş mənə heyran o Xorasanla İraq.
Ey Puri-Xətibi-Gəncə, gəl sən allah,
Qoyma məni ta yandıra odlara fəraq (6; 146).
ای پور خطیب راحت جان توام
تا روز اجل بر سر پیمان توام
گر خلق ترا ز جان می خوا هانند
حقا که از ین میانه خواهان توام (3; 34)
Mən, ey Xətiboğlu, sənə cananam,
Bil, ölüncə sənə sadiq insanam,
Ölməyə hazırdır yolunda çoxu,
Mənsə istəyirəm eşqinlə yanam (7; 121).

Dastanda təsvir olunan Xərabat məhəlləsinin maraqlı cəhətləri diqqəti çəkir. Orada meyxanələr var, hər tərəfdə musiqi sədaları altında xanəndə və şair səsləri eşidilir. Bu da onu göstərir ki, Xərabat şəhərdə ədəbi mühitin ən zəngin və qaynar olduğu yerdir. Ədəbiyyat tarixində Xərabatda təşkil olunan yığıncaqlarda ictimai mövzularda söz-söhbət getdiyi kimi, şeir, musiqi və rəqsə də yer ayrıldığı bildirilir. Məlahətli səsə və musiqi ifa etmək bacarığına malik olan Məhsəti Xanımı məhz bu məziyyətlərinə görə Xərabatdan ayrı tutmaq olmaz.

Dastanda qeyd edilir ki, gənclər Xərabatda bir-birinə aşiq olub rübailərlə şeirləşirlər. Bu da Gəncə ədəbi mühitinin kifayət qədər canlılığını bildirməklə yanaşı, həmin yerdə şairlərin qabaqlaşması, şeirləşməsi məsələlərinin artıq adət-ənənə halında olduğunu təsdiqləyir.

Əsərdə Xətib oğlunun birdən-birə dəyişdiyindən təəccüblənməsi boşuna deyil. Çünki oğlunun həmişə gecə yatmazdan əvvəl “Quran” oxuduğu halda indi birdən-birə rübai oxuması atanı narahat edir. O saat ata bunun Xərabatla bağlı olduğunu anlayır. Elə bu qeydlər də Xərabat məhəlləsinin ədəbi mühitdə böyük rolunu və insanlara təsirini göstərir. Buna görə də Əmir Əhməd bu xoş təmas və təsirdən qurtara bilmir, təkbaşına Xərabata – Məhsətinin yanına gəlir.

Dastanda Məhsətinin poetik tapmaca söyləməsi əhvalatı da maraqlıdır. Bu tapmacanın açmasını Əmir Əhməd deyir. Həmin qarşılıqlı şeirləşmə də Xərabatın ədəbi mənzərəsini əks etdirir. Məhsəti Gəncəvinin rübailərində Xərabatın adının kifayət qədər çəkilməsi də bu məhəllənin Gəncənin ədəbi mühitində rolunu və yerini göstərir. Bunu daha aydın anlamaq üçün şairin yaradıcılığından üç örnəyə diqqət yetirmək kifayətdir:

Çörəkçi yanında şagird olmuşam,
Münəzzindən qabaq yandırıram şam.
Oddan, sudan, undan qızıl çıxarıb
Xərabatda qızıl ələrəm axşam (8; 56).

هان تا به خرابات مجازی نائی
تا کار قلندری نسازی نائی
کینجاره مردان سر اندازان است
جانبازان اند تا ببازی نائی
(11; 366)
Könülsüz Xərabat içrə sən gəlmə,
Dərvişlik rəmzini bilmirsən, gəlmə!
Başından keçənin yoludur bu yol,
Bu yolda can qurban verməsən, gəlmə (9; 16)!
ین کویِ خرابات’ راهِ مردانست
نی راهِ مخنّثانِ تردامنست
زنهار در این راه به حرمت بروید
چون راه نه راهِ ناجوانمردانست
(11; 77)

Xərabat yeridir igid ərlərin,
Burda yeri yoxdur bədgövhərlərin.
Hörmətlə qədəm qoy bu yola çünki,
Yeri deyil bura hiyləgərlərin (8; 43).

Yuxarıda qeyd edilən üç şeirin üçündə də Xərabatın adı çəkilir. Birinci rübaidə, yəni şəhraşubda çörəkçinin əməyi tərənnüm edilir. Şairə burada oddan, sudan, undan qızıl çıxarıb Xərabatda qızıl ələmədən söz açır. Yəni çörəkçi unu xəmir eləyib sonra hazır kündəni təndirə yayır. Bu zəhmət nəticəsində çörək bişir. Şairə halal əməyin bəhrəsini qızıla bərabər tutaraq yüksək qiymətləndirir. İkinci və üçüncü rübailərdə Xərabatın mərdlərin, əhli-halların məskəni olması xatırladılır, burada əyri, haram adamlara yer olmadığı aydınca bildirilir. Tarixi mənbələrdə göstərilir ki, XII yüzillikdə Gəncədə yayılmış əxi birləşmələrinin yığıncaqları daha çox sənətkarlar məhəlləsi adlandırılan “Xərabat”da toplanırdı. İbn Bətutə adlı ərəb səyyahının əxilər haqqında dediyi sözlərinə əsaslanaraq söyləmək olar ki, əxilərin toplandığı Xərabat məhəlləsi həqiqətən də alicənab, comərd, səxavətli, dərvişmisal, görüb-götürmüş adamların yeri, yurdudur. Bütün bunlar Məhsəti Gəncəvinin qeyd edilən misralarında da öz əksini tapmışdır.

Məhsəti Gəncəvinin şəhraşubları Gəncənin sənət və peşə adamlarının ustadlığını, şəhərin tərəqqi etdiyini, burada mədəniyyətin yüksəlişini tərənnüm edir, müəllif bundan qürur duyduğunu da gizlətmir, Gəncənin intibah dövrünün mərkəzi olduğunu deyir. Həm də bu rübailərdə hər peşənin, sənətin özünəməxsusluğu da xırda detallarla da olsa əks olunur. Məsələn, nalbənd çox ustalıqla atın ayağına nalı əyilərək vurur, o, işini elə ustalıqla görür ki, nə atın ayağı inciyir, üstəlik, ətrafdakılar onun işinə heyranlıqla baxırlar. Bu səliqə-səhmanı, qabiliyyəti qəssabın, papaqçının, çörəkçinin və başqa sənət və peşə ustalarının gündəlik işlərində izləmək olar. Müəllif bununla həm şəhərdə sənətkarlığın çiçəkləndiyini, çoxsaylı olduğunu, bunun Gəncəyə şöhrət və şərəf gətirəcəyini göstərir, həm də şəhərin nəinki Azərbaycanda, eləcə də Yaxın və Orta Şərq ölkələrində tanındığını bəlli edir.

### *Ədəbiyyat*

1.Azərbaycan ədəbiyyatı tarixi. II cild. Elm nəşriyyatı, Bakı-2007, 632 səh.
2. Rafael Hüseynov “Məhsəti - necə varsa”. Bakı – 1989
3.Rafael Hüseynov. Məhsəti Gəncəvi. Ədəbi portret. “Şərq-Qərb”nəşriyyatı, Bakı, 2013.
4.Yusifov Xəlil. Məhsəti Gəncəvi. Bakı – 1984
5.Ə.Səfərli, X.Yusifli. Azərbaycan ədəbiyyatı tarixi. Bakı: 2008
6.Xəlil Yusifli. Məhsəti Gəncəvi. Elm nəşriyyatı, Gəncə - 2013
7.Məhsəti Gəncəvi. Rübailər. Lider nəşriyyatı, Bakı - 2004, 144 səh.
8.Məhsəti Gəncəvi. Rübailər. Bakı: 1971
9.Məhsəti Gəncəvi. Bakı: 1969
10. Çingiz Qacar “Qədim və orta əsrlər Azərbaycanın görkəmli şəxsiyyətləri”. Bakı-1997
***Xarici ədəbiyyat***
11. Von Fritz Meier. Die schöne Mahsati. Ein Beitrag zur Geschichte des Persischen Vierzeilers. Band I, Franz Steiner Verlag GMBH, Wiesbaden-1963.
12 کتابخانهٔ الکترونیک شعر فارسی, دیوان مهستی, تهران –۲۰۱

## ГЯНДЖИНСКИЕ ШАХРАШУПЫ МЕХСЕТИ

***Вердиева Тарана Физули кызы***

***Резюме***

Мехсети Гянджеви – одна из интересных и противоречивых представительниц Азербайджанской литературы XII века. Не только в Азербайджане, но и за его пределами есть почитатели лирической поэзии Мехсети.

Близкие к народной поэзии философские рубаи Мехсети сыграли значительную роль в истории литературы Азербайджана и Востока.

В статье высказываются мысли связанные с шахраншупами в творчестве Мехсети Здесь также изучены образы написанных на фарси шахраншупов и исследованы их етималогия как весьма оригинального жанра.

**MAHSATI`S SHAHRASHUBS ABOUT GANJA**

***Verdiyeva Tarana Fizuli***

***Summary***

Mahsati Ganjavi is the most interesting and disputable representative of XII century. Not only in Azerbaijan, but beyond its borders there are a lot of Mahsati creation lovers and people making her the hero of their lyrical poetry.

Mahsati`s rubais close to the folk poetry and poems rich in theorotical thoughts played an important role in Azerbaijani and Eastern literary history. The article deals with investigation of shahrashub in the creative work of Mahsati Ganjavi. Here shahrashub is studied as a rare genre of persianlanguaged poems and its etymology explained.

***Rəyçi:Prof. Xəlil Yusifli***
***AMEA Gəncə Bölməsi Nizami Gəncəvi Mərkəzinin 17.09.2021-ci il tarixli iclasın 04 protokol***
***Daxil olma 14 sentyabr 2021-ci il***

**UOT:80.**

## KƏNGƏRLİ RAYONU ŞİVƏLƏRİNDƏ DİSSİMİLYASİYA, YERDƏYİŞMƏ HADİSƏLƏRİ VƏ SÖZ KÖKÜNDƏ SAMİTLƏRİN QOŞALAŞMASI

***Zülfiyyə İsmayil***
***AMEA Naxçıvan Bölməsi***
***ismayilzulfiyye@yaho.com***

**Xülasə:** *Kəngərli rayonu şivələrində dissimilyasiya, metateza hadisəsinə tez-tez rast gəlinir. Ərazidən toplanmış dil faktlarının fonetik təhlili zamanı digər dialekt və şivələrdə bu prosesin izləri, onların xarakterik xüsusiyyətləri müəyyənləşdirilir. Şivədə rast gəlinən dil faktlarının fonetik təhlili zamanı dissimilyasiya hadisəsinin baş verdiyi sözlər ədəbi dillə müqayisəli şəkildə təhlil edilmişdir.*

**Açar sözlər:** Kəngərli şivələri, dissimilyasiya, yerdəyişmə, qoşalaşma.

**Key words:** Kengerli, accents, dissimilation, metathesis, pairing.

**Ключевые слова:** Кенгерли акценты, диссимиляция, метатеза, и парные согласные.

Kəngərli rayonu şivələrində müşahidə olunan dissimilyasiya, yerdəyişmə və eləcə də bəzi sözlərin kökündə samitlərin qoşalaşması kimi fonetik hadisələr özünəməxsus səciyyəvi xüsusiyyətlərə malikdir. Belə ki, bu şivələrdə işlənən müvafiq sözlərdə müşahidə etdiyimiz sözügedən fonetik hadisələr zamanı özünü göstərən bir qisim xüsusiyyətlərə dilimizin tədqiq olunan digər dialekt və şivələrində rast gəlmədik.

Dissimilyasiya samitlərlə bağlı olan fonetik hadisələrdəndir. Bu hadisə eyni məxrəcdən olan iki səsdən birinin digər məxrəcdən olan səslə əvəzlənməsi ilə səciyyələnir. Bu xüsusiyyətinə görə dissimilyasiya hadisəsinin irəli və geri olmaqla iki növü vardır.

Başqa dialekt və şivələrimiz kimi, Kəngərli şivələrində də dissimilyasiya hadisəsi assimilyasiya hadisəsinə nisbətən az yayılmışdır.

İrəli dissimilyasiya:

İrəli dissimilyasiyada eyni məxrəcdən olan səslərdən ikincisi başqa səslə əvəzlənir. Bu hadisə, başlıca olaraq, alınma sözlərdə sonor samitlərlə əvəzlənməsi ilə səciyyələnir.